# İngilis dili

**Listen to the passage and answer questions 1-6**

1. What is the passage mainly about?
   A) Life of Maria Montessori
   B) Children of Maria Montessori
   C) Family life of Maria Montessori
   D) Education system of Maria Montessori
   E) New model classrooms

2. Choose the correct answer to the questions according to the passage.
   *Which type of method Montessori is?*
   A) Formal educational system
   B) Education that is based on self-directed activity
   C) Non-formal educational system that based on self study
   D) Self study system
   E) It is not educational system

3. Complete the sentence according to the passage.
   *Children work in groups and ….*
   1. individually to discover
   2. explore knowledge of the world
   3. to develop their minimum potential
   4. learn to work individually

   A) 1,2 B) 2,4 C) 3,4
   D) 2,3 E) 1,4

4. Write the correct answer to the question according to the passage.
   *What kind of method is Montessori education?*

   ______________________________________

5. Complete the sentence according to the passage.
   *Montessori classrooms are beautifully crafted environments designed to meet….*

   ______________________________________

6. Write the close meaning of the word "*to discover*"

   ______________________________________

7. Choose the correct sentence.
   *It was such a nice …*
   A) Gold B) Piece of gold
   C) Pieces of gold D) Pieces of golds
   E) Golds

8. Choose the correct sentence in Possessive Case
   1. These actress`s performance was amazing
   2. Those baby`s photos decorated the walls of the room
   3. Nizami`s works are famous all over the world.
   4. She`s been working at the Mammadovs` since 2010.

   A) 1,2 B) 1,3 C) 1,4
   D) 2,3 E) 3,4

9. Choose the correct variant.
   *...Alps are in … Europe.*
   A) the, the B) the, - C) -,-
   D) -,the E) -,a

10. Choose the correct variant.
    1. A heavy traffic 2. A heavy rain
    3. A heavy box 4. A heavy bag

    A) 1,2 B) 2,3 C) 3,4
    D) 2,4 E) 1,3

11. Choose the correct variant.
    *This meal tastes …*
    A) Awful B) Awfully
    C) More awfully D) As awful
    E) Most awfully

12. Choose the correct variant.
    *The salat is as … as the meal.*
    A) Salty B) More salty
    C) Saltier D) The saltiest
    E) The most salty

13. Choose the correct variant.
*Try to do the exercises ...*
A) Myself B) Yourself
C) Themselves D) Himself
E) Itself

14. Choose the correct variant.
*... of you is going to come with us.*
A) Neither B) Some
C) Every D) Somebody
E) Both

15. Choose the correct variant.
*The man ... car was stolen phoned the police.*
A) Who B) Which
C) Whose D) That
E) Whom

16. Choose the correct variant.
*... asks if ... house over there is ...*
A) She, these, theirs
B) She, that, mine C) He, that, her
D) He, those, him E) she, this, her

17. Choose the correct variant.
*... Chinese language is ... difficult.*
A) -,- B) -,the
C) The,the D) The,a
E) The,-

18. Choose the correct variant.
*No ... news was as interesting as ...*
A) Other, our B) Another, their
C) Another, theirs D) The other, ours
E) Other, ours

19. Choose the correct variant.
*It happened in ...*
1. 2015 2. December
3. the 1st of April 4. Monday
A) 1,2 B) 1,3 C) 2,4 D) 3,4 E) 2,3

20. I am always … work … nine … six.
A) at,at,to B) at,from,to
C) at, from,till D) -,at,till
E) at,since,till

21. Choose the correct variant
1. on foot 2. by foot
3. in taxi 4. by taxi
A) 1, 2 B) 1, 3 C) 1, 4
D) 2, 3 E) 3, 4

22. Choose the correct variant.
*Are you interested ... Math?*
A) to B) in C) of D) with E) on

***Read the passage and answer questions 23-30***

Mount Everest attracts many climbers, including highly experienced mountaineers. There are two main climbing routes, one approaching the summit from the southeast in Nepal (known as the "standard route") and the other from the north in Tibet. While not posing substantial technical climbing challenges on the standard route, Everest presents dangers such as altitude sickness, weather, and wind, as well as hazards from avalanches and the Khumbu Icefall. As of May 2024, 340 people have died on Everest. Over 200 bodies remain on the mountain and have not been removed due to the dangerous conditions.

The summit of Everest is the point at which Earth's surface reaches the greatest distance above sea level. Several other mountains are sometimes claimed to be the "tallest mountains on Earth".

23. Choose the correct statements according to the passage.
1. Mount Everest attracts many climbers, including highly experienced mountaineers
2. There is only one climbing route
3. As of May 2024, 105 people have died on Everest.
4. Over 200 bodies remain on the mountain and have not been removed due to the dangerous conditions.
A) 1,4 B) 2,3 C) 1,3
D) 1,2 E) 3,4

24. The passage is mainly about
    A) Earth's surface
    B) Mount Everest
    C) Distance above sea level
    D) Main climbing routes
    E) Nepal and Tibet

25. Choose the answer to the question according to the passage.
    Why over 200 bodies remain on the mountain and have not been removed?
    A) Due to climate
    B) due to the dangerous conditions
    C) there wasn`t any equipment
    D) the weather was too bad
    E) because of the people`s testament

26. Choose the correct variant that completes the sentence according to the passage.
    While not posing substantial technical climbing challenges on the standard route, Everest presents dangers such as…
    1. Changeable climate
    2. Altitude sickness, weather
    3. Dangerous weather
    4. As well as hazards from avalanches

    A) 1, 5 B) 2, 4 C) 1,3
    D) 2, 3 E) 4, 5

27. Write the answer to the question by expressing your opinion according to the passage. Write at least three sentences.
    How many climbing routes are there in the Mount Everest?
    ______________________________________

28. complete the sentence according to the passage by changing two words.
    Over 200 bodies remain on the mountain and have not been removed due to the …
    ______________________________________

29. Write the close meaning of the word “route”
    ______________________________________

30. Write the word from paragraph 1 which best fits the definition
    “the possibility of suffering harm or injury”
    ______________________________________

# Azərbaycan dili

31. Hansı nümunədə sayla isim arasında işlənmiş numerativ söz kəmiyyət fərqi yaratmışdır?
A) altı nəfər sosioloq
B) üç baş qoyun
C) doxsan ədəd qələm
D) iki vaqon yaralı
E) yeddi dəstə gül

32. Hansı variantda uyğunluq pozulmuşdur?
A) Uşaqlar sanki buradan keçmişdi → işarə əvəzliyi işlənibdir.
B) Mənliyini dünya mənfəəti qarşısında heç kəs qurban verməməlidir → qeyri-müəyyən əvəzlik işlənmişdir.
C) Özəlləşdirilmiş yeni obyektlər bütün sahibkarları razı saldı → təyini əvəzlik işlənmişdir.
D) Usta Əli bizi əlinə alıb onu səslədi → şəxs əvəzliyi işlənmişdir.
E) O bina yeni təmir olunmuşdu → işarə əvəzliyi işlənmişdir.

33. Cərgələrin birində "q" hərfi üç müxtəlif səsi ifadə edir:
A) aşiq, aşıq, hüquq
B) balıq, qəlb, yarpaq
C) üfüq, şəfəq, qalib
D) saqqız, qanun, nöqsan
E) bulaq, daraq, qalaq

34. "Ağrıtmaq" və "ağrılı" sözlərinin kökləri hansı nitq hissəsinə aiddir?
A) isim, isim B) feil, isim
C) isim, feil D) feil, zərf
E) feil, feil

35. Hansı cümlədə iki düzəltmə sifət işlənmişdir?
A) Donluğu elə biç ki, alınan paltar geyinənə gözəllik versin.
B) Tarixi kitablarda ölkənin daxili və xarici siyasəti belə təsvir olunurdu.
C) Qızılı saçlarını darayanda ürəyimə sanki bir sərinlik çökürdü.
D) Gələcəkdəkilər dünənkilərdən dərs çıxarsınlar.
E) Sabahkı gün üçün bir qurban da məndən olsun.

36. Sadə feillər haqqında əminliklə söyləmək olar:
A) Məlum növdədirlər.
B) Xəbər şəklindədirlər.
C) Təsdiqdədirlər.
D) Təsriflənəndirlər.
E) Şəxsə görə dəyişmişdirlər.

37. Hansı cümlədə zərfin məna növlərindən yalnız biri işlənmişdir?
A) Gecəyarısı başlayan külək güclənirdi, insanlar təşvişlə fırtınanın sakitləşməsini gözləyirdilər.
B) Başını qaldırıb yuxarı baxdıqda səmada vüqarla süzən bir qartal gördü.
C) Qəflətən qapı açıldı, əli silahlı əsgərlər içəri girdilər.
D) Əvvəllər az-az getdiyi sahil indi onun ən sevimli yerinə çevrilmişdi.
E) Bu hadisədən sonra onun dərslərə olan marağı xeyli artmışdı.

38. Cümlələrin birində feili bağlama işlənməmişdir:
A) Qaçanda ceyran kimi görsənirsən.
B) Döyülməmiş əl çəkən deyilsən?
C) Maşın tini dönə-dönə siqnal verirdi.
D) Günah həmişə öləndədir.
E) Yağdıqca yağış elə hey yağırdı.

39. İşarələnmiş sözlərdən hansı adlıq halda olan isimdir?
A) <u>Köynəyin</u> köhnəlib.
B) <u>Köynəyin</u> düyməsi qırılıb.
C) <u>Köynək</u> sahibi burada idi.
D) Sən təzə <u>köynək</u> almısan.
E) Sənin <u>köynəyindən</u> xoşum gəldi.

40. *Bir qədər mey verir sənə Nizami,*
*Gərək nuş edəsən Keykavus kimi...*
*Yad etsək bu iki gözəl niyyəti,*
*Birə on artacaq sözün qiymәti.*
(N.Gəncəvi)
Nümunədəki felləri şəkillərinə görə ardıcıl düzün.
A) xəbər, arzu, şərt, xəbər
B) xəbər, lazım, şərt, xəbər
C) əmr, lazım, şərt, xəbər
D) xəbər, əmr, şərt, xəbər
E) xəbər, arzu, şərt, əmr

**Mətni diqqətlə oxuyun və 11-20-ci tapşırıqları cavablandırın.**

**Halal adam**

Bir neçə il bundan əvvəl maddi vəziyyətim o qədər də yaxşı deyildi. Amma birtəhər pul toplayıb Həccə gəldim.

Kəbənin ətrafında gəzəndə ayağım kisəyə ilişdi. Götürüb içinə baxanda min dinar pul olduğunu gördüm. Şeytan qılığıma girməyə çalışırdı ki, pul kisəsini ələ keçirim. Amma vicdanım məni **təhrik edirdi** ki, harama əl bulamayım. Tamahımla vicdanım qızğın mübarizə aparırdı. Birdən bir adamın **car çəkdiyini** eşitdim:

"Ay camaat, min dinar itirmişəm. Kim tapsa, otuzunu ona verəcəyəm. İçimdəki şeytana qalib gələ bildim. Pula görə günaha batmağa dəyərdimi? Otuz dinar halal pul daha yaxşı idi. nəinki min dinar haram. Pulu aparıb sahibinə verdim, o da mənə otuz dinar bağışladı.

Vətənimə dönəndə yol üstündəki şəhərlərin birində kölə bazarına girdim. Orada otuz dinara yaraşıqlı və sağlam bir kölə satıldığını gördüm. Pulu verib köləni aldım və özümlə apardım.

Üstündən bir müddət keçəndən sonra bir dəstə varlı-hallı adam gəldi. Bir gün gördüm ki, bu adamlar mənim köləmlə söhbət edirlər.

Köləm onlar eşitməsin deyə sakitcə mənə dedi:

"Mən hökmdar oğluyam. Atamla qonşu padşahın müharibəsi zamanı əsir düşdüm. Kimliyimi gizlətdim ki, məni öldürməsinlər. Kölə kimi bazara çəkildim, axırda sən məni aldın. Atamın adamları yerimi öyrənib gəliblər. Atam onlara əlli min dinar verib ki, məni satın alıb vətənimə qaytarsınlar. Sən mənimlə çox yaxşı **davranmısan**. İstəyirəm ki, mən də sənə yaxşılıq edim.

Bu adamlar sənin yanına danışığa gələcəklər ki, məni səndən alsınlar. Məni əlli min dinara onlara sat, qiymətdə güzəşt etmə".

Mən onu əlli min dinar müqabilində həmin adamlara satdım. Özüm də pulu alıb əlimdə sərmayə etdim. Bir gün dostlarımdan biri yanıma gəlib dedi ki, məşhur tacirlərdən biri vəfat edib, qızı himayəsiz qalıb. Dostum mənə təklif etdi ki, o qıza elçi düşüb evlənim. Bir-birimizi bəyəndikdən sonra həmin qızla ailə qurdum.

Qız öz atasından qalan **mirasla** evimizə köçdü. Gətirdiyi pullar min dinarlıq kisələrdə idi. Kisələrin hamısının üzərində min dinar yazılmışdı. Bir kisənin başı[1] isə yarımçıq idi, İçində 970 dinar vardı. Səbəbini soruşanda qız dedi ki, atam Həccdə olanda bu kisəni itirib, sonra bir halal oğlan kisəni tapıb ona qaytarıb, atam da pulun üstündən otuz dinar götürüb o oğlana verib. Mən başıma gələnləri qıza danışdım. Hər ikimiz dünyanın işinə **heyran olduq.**

……………………………………………

O gündən həmişə Allaha bu sözlərlə dua edirəm: "Şükürlər olsun, ey düzgün bəndələrinə yardım edən, haramdan çəkinən bəndələri qoruyan Allah!".

41. Mətnin tərkib hissələrini genişləndirə bilən cümlələrə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş  2. Əsas hissə  3. Nəticə

a. Sən səni tanıyan heç bir bəndəndən mərhəmətini əskik etmirsən.

b. Bu pulla böyük bir dükan açıb ticarətlə məşğul olmağa başladım.

c. Buna baxmayaraq, arzuma çatmaq üçün qəpik- qəpik pul yığırdım.

d. Nə vaxtsa imkanımın yaxşı olacağına da heç ümidim yox idi.

e. Məni görəndə adamlar söhbətlərini yarımçıq kəsib dayandılar.

A) 1-b, e; 2-a; 3-c, d  B) 1-c; 2-a, e; 3-b, d
C) 1-c, d; 2-b, e; 2-a  D) 1-d; 2-a, c; 3-b, e
E) 1-e; 2-a, c, d; 3-b

42. Mətndə nöqtələrin yerinə uyğun gələn cümlələri müəyyən edin.

1. Qərara gəldik ki, o otuz dinarı tapıb kisənin başını dolduraq.

2. Qız bunu öyrəndikdən sonra düzgün seçim etdiyinə daha da əmin oldu.

3. Tacir də əhvalatdan xəbər tutub gəldi və məni dostuma təriflədi.

4. Halallığın nə qədər mühüm olduğunu bir daha anlamış olduq.

5. Vaxtilə o pulu aldığıma görə dərin peşmanlıq hissi yaşadım.

A) 1, 4, 5  B) 1, 2, 5  C) 3, 5
D) 2, 4  E) 3, 4

43. Mətnə əsasən cədvəldəki düzgün fikirləri müəyyən edin.

| Mətndə bu haqda məlumat var | Mətndə bu haqda məlumat yoxdur |
|---|---|
| 1. Əhvaları nəql edən adamın ətrafında onun yaxşılığını istəyən dostu var idi. | 4. Tacir uzun sürən xəstəlikdən sonra vəfat etdi. |
| 2. Hökmdar oğlunu xilas etmək üçün pula qənaət etmədi. | 5. Hekayəni nəql edən oğlanla tacir eyni şəhərdən imişlər. |
| 3. Hökmdarın oğlu onu xilas edən adam haqqında atasına da danışdı. | 6. Müharibə zamanı əsir düşənləri qul kimi satırdılar. |

A) 1,2,4,5 B) 4,5,6 C) 1, 3, 4,6
D) 2,3,5 E) 1,2,3,6

44. Mətnə görə ***yanlış*** fikirləri müəyyən edin.
1. Hökmdarın oğlu sağ qala bilmək üçün düşmənlərə yalan danışmışdı.
2. Gənclər bir-birilərini bəyənməsələr də, evlənmək məcburiyyətində qaldılar
3. Sən demə, tacir pullarının itməsini indiyə qədər heç kimə deməyibmiş.
4. Himayəsiz qalan qızlar güclə kimləsə evləndirilir, var-dövləti əlindən alınırdı.

A) 3, 4 B) 1, 3 C) 2, 3
D) 1, 2 E) 2, 4

45. Mətndə tünd-qara hərflərlə verilmiş heç bir ifadənin qarşılığının işlənmədiyi cümlələri müəyyən edin.
A) Mənimlə normal rəftar edirlər və əmək haqqım vaxtında ödənilir.
B) Əlamətdar günlərdə şəhidləri ziyarət etmək artıq ənənəyə çevrilib.
C) Dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.
D) Həyətdə kimsə bərkdən qışqırır, anlaşılmaz sözlər deyirdi.
E) Hər yaz ağaclar çiçəklər açdıqda kəndimizə bir daha heyran oluram.

46. Mətnin ideyası nədir?

______________________________________

______________________________________

47. Üzərində rəqəm yazılmış ifadələrə əsasən cədvəli tamamlayın.

| Söz | Həqiqi mənada işlənmişdir (✓) | Məcazi mənada işlənmişdir (✓) | Mətndəkindən fərqli mənada cümlədə işlənməsi |
|---|---|---|---|
| baş | | | |
| iş | | | |

48. Cədvəli doldurun.

| Mətnlə bağlı fikir | Əsərin qəhra manına aiddir (✓) | Hökm-darın ogluna aiddir (✓) | Hər ikisinə aiddir (✓) | Əsaslan-dırma |
|---|---|---|---|---|
| Yaxşılığa yaxşılıqla cavab verir. | | | | |
| Halal, yoxsa haramı seçməkla bağlı imtahan yaşayır. | | | | |
| İnsan lara yaxşı lıq etməyə çalışır. | | | | |

49. Əsərin qəhrəmanının xarakterini səciyyələndirən fikirlər yazın.

______________________________________

______________________________________

50. Mətnin II abzasına əsasən cədvəli doldurun.

| Mətnin xarakterik üslubi xüsusiyyəti | Nümunə |
|---|---|
| | |

**Mətni diqqətlə oxuyun və 21-30-cu tapşırıqları mətn əsasında cavablandırın.**

**Cavad xan**

Qacarlar nəslindən olan böyük Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı idi.

Cavad xan 1748-ci ildə Gəncə şəhərində doğulub. Gəncədə XVI əsrdən hökmranlıq etmiş, ilk doqquz Qızılbaş tayfalarından biri olan və Qacarların bir qolu sayılan Ziyadoğlular nəslindəndir.

1786-cı ildə hakimiyyətə gələn Cavad xa- nın dövründə (1786-1804) Gəncə xanlığı daha da möhkəmlənir və inkişaf edir. O, xaricdən asılılığı azaltmaq məqsədilə xanlığın qızıl və gümüş sikkələrini buraxmağa başlayır. Ticarət genişlənir, müxtəlif sənət sahələri inkişaf edir. Yaşayış binaları, karvansaralar, məscidlər tikilir. Xan sarayında alimlər, şairlər məclisi toplanır.

Cavad xan həmin dövrdə bir-birini sürət- lə əvəz edən mürəkkəb hadisələr fonunda fəal siyasi fəaliyyət aparırdı. **I** Yaxınlaşan Rusiya təhlükəsi qarşısında Azərbaycan, Dağıstan və Gürcüstan hakimlərinin vahid cəbhədən çıxış etmək meyillərindən istifadə edərək antirusi- ya koalisiyası yaratmağa çalışır. Lakin həlledici anda onlardan dəstək ala bilmir və güclü düşmən qarşısında tək qalır.

XIX əsrin əvvəllərində Rusiya imperiyası Azərbaycanın **1** .......... planını reallaşdırmağa başlayır. İlk olaraq, mühüm strateji mövqeyə malik Gəncəni ələ keçirmək qərara alınır. Plan haqda imperiyanın Qafqazdakı canişini general Sisianov da yazmışdı. **II** O deyirdi ki, Gəncə qalası özünün əlverişli coğrafi mövqeyi ilə Azərbaycan ərazisində xüsusi rol oynayır. Hakimiyyəti ələ alan Çar Pyotr Rusiyanı müasirləşdirməyə yönəlmiş islahatları tətbiq etməyə başladı.

<u>Sisianov Cavad xana bir neçə dəfə təslim olmağı təbliğ etsə də, rədd cavabı alır</u>. 1803-cü il noyabrın 20-da onun komandanlığı altında rus ordusu Tiflisdən Gəncə üzərinə yeriyir və dekabr ayında şəhəri mühasirəyə alır.

**III** Gəncə şəhərinin ikiqat müdafiə səddi və 6 bürclü qala ilə əhatələnməsi Cavad xana bir müddət hücumları dəf etmək imkanı verir.

1804-cü il yanvarın 3-də rus ordusunun iki istiqamətdən şəhər üzərinə güclü hücumu başlanır. Üçüncü cəhddən sonra ruslar qalanı almağa **2** .......... Cavad xanın və oğlu Hüseynqulu xanın da qəhrəmancasına həlak olduğu bu döyüşdə Gəncənin iki mindən çox müdafiəçisi öz həyatını itirir.

İşğaldan sonra Gəncə şəhərinin adı dəyişdirilərək çar I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adlandırılır.

**IV** 1826-cı ildə Cavad xanın digər oğlu Uğurlu xan Gəncəni azad etməyə nail olur. Lakin rus ordusuna dəstək üçün əlavə qüvvələrin gəlməsindən sonra şəhər yenidən rusların əlinə keçir.

Cavad xan Gəncədə Şah I Abbas tərəfin- dən tikilmiş məşhur Cümə məscidində dəfn olunur. 1962-ci ildə yaxınlıqdakı meydanın rekonstruksiyası zamanı onun məzarı dağıdılır. V Lakin xalq bu qəhrəman övladının cəsədinin qalıqlarını gizli şəkildə qoruyub saxlayır. 1990- cı il martın 27-də Cavad xanın nəşi öz əvvəlki yerində torpağa tapşırılır və üzərində məqbərə ucaldılır.

51. Cədvəldəki düzgün fikirləri müəyyən edin.

| Mətnə görə əsaslandırıla biləcək fikirdir. | Mətnə görə demək olmaz. |
|---|---|
| 1. Cavad xanın məzarı Gəncədəki Cümə məscidindədir.<br>2. Cavad xan itki verməmək üçün ciddi mübarizə aparmadan təslim oldu. | 3. Cavad xan hər iki oğlunu ruslarla döyüşdə itirmişdir.<br>4. Oğulları da Cavad xan kimi igid və vətənpərvər idilər. |

A) 1, 2 B) 2, 4 C) 1, 4
D) 2, 3 E) 1, 3

52. Mətnə əsasən düzgün fikirləri müəyyən edin.

| Cavad xanın mübarizə apara bilmə səbəbi | Cavad xanın məğlubiyyət səbəbi |
|---|---|
| 1. Əlverişli siyasi əlaqələrin qurulması.<br>2. Gəncənin müdafiəsinin yaxşı təşkil olunması. | 3. Gəncə xanlığının daxilində baş verən çəkişmələr.<br>4. Rusiya əleyhinə qonşu dövlətlərlə birliyin yarana bilməməsi. |

A) 2,4 B) 1,3 C) 1,4 D) 1,2 E) 2,3

53. Mətndə onun məzmunu ilə əlaqəli ***olmayan*** cümlə hansı cümlə ilə əvəzlənə bilər?
A) Nadir şahın öldürülməsi ilə onun nəhəng imperiyası dağılmağa başladı.
B) Cavad xan 5 il Gəncənin xanı olmuş Şahverdi xanın oğlu idi.
C) Çünki Azərbaycan xalqı bu faciəli hadisəni heç vaxt unutmaycaq.
D) Ona görə də Rusiya üçün onu tutmaq ən əhəmiyyətli məsələlərdəndir.
E) Üsyan yatırılsa da, qısa müddət sonra o, sui- qəsd nəticəsində qətlə yetirilmişdir

54. Əvvəlində Roma rəqəmi yazılmış hansı cümlə mətndən çıxarılsa, mətnin məzmununa xələl ***gəlməz***?
A) I B) II C) III D) IV E) V

55. Mətndə bundan ***danışılmayıb***:
1. Antirusiya koalisiyası yaratmaq niyyətindən
2. Gəncə xanlığının əsasının qoyulmasından
3. Gəncə xanlığının sonuncu hökmdarından
4. Yelizavetanın Gəncə şəhərinə olan marağından
5. Gəncə şəhərinin adının dəyişilməsindən
A) 1, 3, 5 B) 1, 2, 4 C) 2, 4
D) 3, 4 E) 1, 5

56. Mətnə əsasən cədvəli doldurun.

| Müddəa | Fakt |
|---|---|
| | Tikinti sahəsində inkişaf müşahidə olunurdu. |
| | Ticarət genişlənmişdi. |
| | |

57. “Xalq Cavad xana olan ehtiramını əməli ilə sübut etmişdir“ fikrinin düzgünlüyünü mətnə görə əsaslandırın.

________________________________________
________________________________________
________________________________________
____________________________________

58. Mətnə əsasən cədəvli doldurun.

| Səbəb | Nəticə |
|---|---|
| | Rusiya tərəfindən Gəncəni tutmaq qərarı alınır. |
| Rus ordusuna dəstək üçün əlavə qüvvələr gəlir. | |

59. Altından xətt çəkilmiş cümləyə əsasən cavablandırın.
Cümlədə kontekstə uyğun olmayan ifadə:
Həmin ifadənin mənası:
_______________________________________
_____________________________________

Həmin ifadəni əvəz edə biləcək söz:
_______________________________________
_____________________________________

60. Mətndə nöqtələrin yerinə məzmuna uyğun ifadə yazın.

1.______________________________________
_____________________________________

2.______________________________________
_____________________________________

## Riyaziyyat

61. ƏBOB$(20,n)=n$ bərabərliyindən n –natural ədədlərinin sayını tapın.
A) 6 B) 8 C) 4 D) 5 E) 10

62. m,n- natural ədədlərdir. n-ədədini $m^3$-ədədinə böldükdə qismətdə 2 qalıqda 11 qalır. n-ədədinin ənkiçik qiymətinin rəqəmləri cəmini tapın
A) 13 B) 11 C) 8 D) 12 E) 10

63. a-ədədi b-ədədindən 20%-azdır b-ədədi a-ədədindən neçə %-çoxdur?
A) 20% B) 35% C) 40%
D) 25% E) 15%

64. $2a=3b=4c$ olarsa $\frac{a+b}{b-c}$ ifadəsinin qiymətini tapın.
A) 12 B) 15 C) 10 D) 6 E) 8

65. $\frac{3}{7}+\frac{4}{9}+\frac{5}{11}+\frac{6}{13}=a$ olduqda $\frac{1}{7}+\frac{1}{9}+\frac{1}{11}+\frac{1}{13}$ cəmini a ilə ifadə edin.
A) 3a-2 B) 4+2a C) 4-2a
D) 2-a E) 3-a

66. $2n\cdot 10^n$ ədədi standart ədəddirsə n-in ala biləcəyi qiymətləri topla
A) 8 B) 12 C) 14
D) 10 E) 15

67. İnnovativ sözünün həriflərindən A çoxluq düzəldirmişdir. A çoxluğunun elementləri saitlər olan bütün alt çoxluqların sayını tapın.
A) 8 B) 27 C) 7
D) 16 E) 26

68. $x^2-5xy-6y^2$ çoxhədlisini vuruqlara ayırın
A) $(x-6y)(x-y)$
B) $(x+y)(x-6y)$
C) $(x-y)(x+6y)$
D) $(x-2y)(x+3y)$
E) $(x+2y)(x-3y)$

69. $\frac{x^2-3x-4}{x^2-5x-6}$ ifadəsini sadələşdirin.
A) $\frac{x-4}{x-6}$ B) $\frac{x+4}{x-6}$ C) $\frac{x+1}{x-6}$
D) $\frac{x-4}{x+6}$ E) $\frac{x+1}{x+2}$

70. $(4x^3y^2-5xy^3)^4+(x^2y-2)^5$ çoxhədlisinin dərəcəsini tapın.
A) 25 B) 30 C) 35 D) 20 E) 24

71. a//b olarsa $\angle ABC$ bucağını tapın.




A) $100^0$ B) $120^0$ C) $140^0$
D) $110^0$ E) $80^0$

72. $\Delta ABC$ –üçbucağında G-ağırlıq mərkəzidir. $|BG| = 6sm$ və $|AC| = 24sm$ olarsa üçbucağın perimetrini tapın.




A) 54 B) 40 C) 64 D) 36 E) 45

73. $\Delta ABC$ –üçbucağında $|AB| = 10sm$, $|BC| = 13sm$, $|AC| = 15sm$ olarsa $|AR| \cdot |RC| = ?$




A) 48 B) 54 C) 36 D) 42 E) 75

74. 40 % spirt məhlulunun 20 %-i buxarlandırıldı. Alınmış məhlul neçə %-li oldu.

75. Bir ədədin $\frac{1}{3}$ hissəsi ilə $\frac{1}{4}$ hissəsinin cəmi 21-dir. Bu ədədi 25 %-i tapın.

76. $\begin{cases} 4x - 5y = 38 \\ x - 2y = 8 \end{cases}$ tənliklər sistemindən $x - y$ fərqini tapın.

77. $\sqrt{4+2\sqrt{3}}-\sqrt{4-2\sqrt{3}}$ fərqinin ədədi qiymətini tapın.

78. Çevrədə AB toxunandır. $\angle CAB=30^0$ və AC=10 olarsa çevrənin ən böyük vətərinin uzunluğunu tapın.




79. $x=3+\sqrt{11}$ olarsa, $x^2-6x+2022$ifadəsinin ədədi qiymətini tapın.

80. İki müsbət tam ədədin birinin 45 %-i digərinin 24 %-nə bərabərdir. Bu ədədlərin cəminin ən kiçik qiymətini tapın.

81. $\frac{\sqrt{2x-6}+\sqrt{15-5x}+4x}{\sqrt{x+6}+x}$ ifadəsinin ədədi qiymətini tapın.

82. Beş ardıcıl tək ədədin cəmi 75-dir. Bu ədədlərdən ən böyük olanını tapın.

83. $\begin{cases} x^2+y^2=45 \\ x-y=5 \end{cases}$ sistemindən $x\cdot y$ fərqini tapın.

84. Çevrədə AB tyoxunan və AD kəsəndir. AB=12 AC:CD=4:5 olarsa CD=?




85. ABC bərabərtərəfli üçbucağdır G ağırlıq mərkəzidir. $BG=4\sqrt{3}$ olarsa $P_{ABC}=?$

